# Regional Təhsil İdarələri üzrə təhsil işçilərinin sentyabr konfransları keçirilib

Sentyabrın 7-də Qarabağ Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.

Konfransdan əvvəl ümummilli lider Heydər Əliyevin xatirəsinə ucadılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub. Daha sonra konfransın keçirildiyi Bərdə şəhər 4 nömrəli tam orta məktəbdə təşkil edilmiş sərgi ilə tanışlıq olub.

Konfransı giriş nitqi ilə açan Qarabağ Regional Təhsil İdarəsinin müdir müavini Anar Məcidov idarənin tabeliyində olan təhsil müəssisələri haqqında məlumat verib.

Daha sonra çıxış edən Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdir müavini Orxan Abbasov əvvəlcə 2022-2026-cı illər üzrə təhsil strategiyasının məzmunu ilə bağlı konfrans iştirakçılarına məlumat verib. Orxan Abbasov növbəti illərdə qarşıda duran ən vacib məsələlər və müəyyən olunmuş hədəfləri qeyd edib.

Konfransda Qarabağ Regional Təhsil İdarəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin 2021-2022-ci il tədris ili üçün göstəricilərinə dair statistik məlumatlar iştirakçıların diqqətinə çatdırılıb.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, bir çox məsələlər ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb.

***

Sentyabrın 7-də Qazax-Tovuz Regional Təhsil İdarəsinə daxil olan bölgələr üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.

Tədbirdən öncə qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Konfransda Elm və Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarə olunması sektorunun müdiri Fuad Qarayev, Qazax-Tovuz Regional Təhsil İdarəsinin müdiri Arslan Hacıyev, Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonunda çalışan təhsil işçiləri iştirak ediblər.



Konfrans Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən Qazax-Tovuz Regional Təhsil İdarəsinin müdiri Arslan Hacıyev konfransın işinə uğurlar arzulayıb.

Sonra Elm və Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarə olunması sektorunun müdiri Fuad Qarayev çıxış edərək ümumi təhsilin prioritet istiqamətlərini diqqətə çatdırıb, sertifikasiya, ümumi təhsilin təşkili, idarə olunması və digər məsələlər barədə məlumat verib. Yeni dərs ilində qarşıda duran əsas hədəflərə toxunan Fuad Qarayev təhsil işçilərinə yeni tədris ilində uğurlar arzulayıb.

Konfransın sonunda yeni tədris ilinin prioritet məsələləri haqqında fikir mübadiləsi aparılıb, konfrans iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirilib və suallar cavablandırılıb.

***

Sentyabrın 8-də Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.

Tədbirdən öncə qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Konfransda Elm və Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarə olunması sektorunun müdiri Fuad Qarayev, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev, millət vəkilləri Pərvin Kərimzadə və Müşfiq Cəfərov, Gəncə Şəhər İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Azər İbrahimov, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin sədri Fuad Əliyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Gəncə şəhər komitəsinin sədri Bayram Hacıyev, Gəncə, Naftalan şəhərlərində, Goranboy, Göygöl, Daşkəsən və Samux rayonlarında çalışan təhsil işçiləri iştirak ediblər.

***

Sentyabrın 8-də Mərkəzi Aran Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.

Konfransda Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdir müavini Orxan Abbasov, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, Mingəçevir şəhər, Ağdaş, Göyçay, Ucar, Zərdab və Kürdəmir rayonlarında çalışan təhsil işçiləri iştirak ediblər.

Tədbirdən öncə qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdir müavini Orxan Abbasov əvvəlcə 2022-2026-cı illər üzrə təhsil strategiyasının məzmunu ilə bağlı konfrans iştirakçılarına məlumat verib. Orxan Abbasov növbəti illərdə qarşıda duran ən vacib məsələlər və müəyyən olunmuş hədəfləri qeyd edib.

Tədbirdə iştirakçıların sualları cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Azərbaycan müəllimi.- 2022.- 9 sentyabr.- S.4.